2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 05 yanvar 2015-ci il tarixli 130 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 07 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 109 saylı Balakən seçki dairəsindən Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Muradov Mustafa Murad oğlunun 2015-ci il yanvarın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq tərtib edildiyindən və müəyyən edilmiş şikayətvermə müddətində verildiyindən ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Araşdırma zamanı 109 saylı Balakən seçki seçki dairəsinin 1, 2, 4 və 5 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış lakin seçilməmiş namizədlərin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müəyyən edilmişdir ki, mübahisələndirilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, hər bir seçici aktiv seçki hüququnu hər hansı təsir olmadan reallaşdırmış, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif siyasi partiyaları təmsil edən və öz təşəbbüsü ilə müşahidə aparan müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirilmişdir.

Belə ki, 109 saylı Balakən seçki dairəsinin 1, 2, 4 və 5 saylı məntəqə seçki komissiyasının üzvləri A.N.Ağayeva, M.Q.Qarayeva, N.M.Qarayev, Ş.Ş.Motuxova, C.M.Qaralova, G.B.Xəlilova, G.Nastakalova, A.M.Əzizova, R.P.Rəhimli, İ.Ə.Soltanov, V.Ə.Əlimərdanov, D.İ.Qaraçayeva, V.K.Ocaqverdiyev, H.N.Cantayev, A.A.Xurtunova, Y.S.Zamanova, S.Z.Qədirova, Ü.R.Əliyev, T.R.Mahmudov, İ.O.Qallacov, müşahidəcilər, E.V.Əliyeva, K.P.Həsənova, R.R.Süleymanova, N.M.Osmanov, K.R.Bayramova, Z.A.Nəcəfov, müşahidəçilər E.R.Əzimova, S.H.Murtuzayeva, B.C.Şaşqayeva, R.C,Musayev, E.M.Haciyev, E.Q.Hacıyeva, C.E.Əliqayeva, F.Ə.Molulova, E.R.Abbasova, S.Z.Murtuzova, Ə.T.Bayramova, M.İ.Müsalimova, İ.Ə.Rəhimova, Ə.K.Hacıyəv, Ə.Ə.Alqayev, R.T.Tağıyev, M.S.Tosova, Ş.B.Abdullayev,

D.Q.Qardaşova, Q.S.İsamyılov, G.C.Hacıyeva, K.M.Vaslarov, M.S.Quliyeva, N.Z,İsgəndərova, O.H.Qurbanova, X.M.İsaxəliyeva, V.Ə.Məmmədova, M.T.Dibirov, Ş.Ə.Tütünçüyeva, S.E.Qarayeva, R.N.Qaraçayev, İ.Ş.Saramonov, N.M.Süleymanov, Ə.R.Kazımova, Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçkilərdə kifayət qədər səs toplamamış 26 nəfər namizəd izahatlarında bildirmişlər ki, seçkilər günü səsvermə prosesində hər hansı qanun pozuntusu müşahidə edilməmiş, səsvermənin gedişinə müdaxilə olunmamış, eyni zamanda hər bir seçici şəxsən səs vermiş, səslərin hesablanması qanunauyğun aparılmş, səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyasının protokolu seçki məntəqəsində tərtib edilmişdir.

Ərizəçi tərəfindən seçkilər günü səsvermədə təkrar iştirak etdikləri iddia olunan M.S.Quliyeva, F.Ə.Molulova, X.M.Mustafayeva, K.H.Vasovlar, Ə.İ.Musayeva və A.M.İsayeva izahatlarında onlar tərəfindən başqa şəxslərin əvəzinə səs verilməsinin əsassız olduğunu bildirmişlər.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 109 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 29/103 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 109 saylı Balakən seçki dairəsindən Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Muradov Mustafa Murad oğlunun 5 yanvar 2015-ci il tarixli 130 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 29/103 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov